**Valiyeva A.Q., Alizada C.Sh.**♦

**DOI:** 10.25108/2304-1730-1749.iolr.2018.54.32-53

# Influence of ethnic extremism on international relations and its political and legal aspects

**Abstract:** It can be concluded that with the title of ethnic extremism, in the context of neo-imperialism actors' who try to manage the world steps stand for realizing the national and transnational ambitions. For example, in the India of Britain the incidents which happened between Muslims and Indians caused the creation of India and Pakistan. And we all know that those were the plans of Britain. Also if India would not support Bangladesh, the country would not be created**.**

So, as we see, the politics of ethnic extremism creates a chain of processes. Ethnic extremism is an action that a liberal country starts for creating a new country into another one or for separating a country. So creating a country into other country is a great risk for the liberty of the country. And then the sources for the powers of the ethnic extremism try to get advantages of this. By this they throw the seeds of international problems. So the damages of the ethnic extremism are worse than a war. And ethnic extremism is not a secret to somebody. We have to stop it as soon as we can.

As we know there are thousands of nations all over the world. If now every nation offers it's free management, it would cause chaos in the world.Because in the countries there are different people who have different religions, different

♦**Valiyeva Aynur Qahraman qizi** – Researcher of the Department of "The legal provision of state security" of the Institute on Law and Human Rights of the Azerbaijan National Academy of Sciences (Azerbaijan). E-mail: veliyevaa3@gmail.com
**Alizada Cavid Shirzad oglu** - Researcher of the Department of "The legal provision of state security" of the Institute on Law and Human Rights of the Azerbaijan National Academy of Sciences (Azerbaijan). E-mail:cavid6455@mail.ru

nations, different cultures etc. And if all nations would try to create free and liberal country, there would be thounds of countries in the world.And it really doesnt sound good.So always the main topic must be the wholness and freedom of a country. People must stop the separatist unions by this way. If the country doesnt allow the local, little nations referendum of freedom,it is illegal,also something that we cannot ignore. Even though there will be held referendum, the world is not going to support it and it will fail.

**Keywords**: extreme nationalism; ethnic extremism; separatist forces; chauvinism.

Müasir münaqişələr yer üzündə qeyri-sabitliyin aparıcı amillərindən birinə çevrilmişdir. Mənşəyinə və xarakterinə görə rəngarəng olan münaqişələr arasında etniklərarası və millətlərarası münaqişələr xüsusi yer tutur. Onlar daha mürəkkəb, dolaşıq, üzücü və çətin həll olunan münaqişələr hesab olunur.Tarix göstərir ki, etniklərarası və millətlərarası kolliziyalar bir çox polietnik regionlarda miqyasına, davamlılığına və intensivliyinə görə sosial-siyasi münaqişələrin digər tiplərini üstələyir. Ekstremizm sözü  latın sözü olub (extremus-ən son hədd) ən son metodlara maraq, ifratçı kimi tərcümə oluna bilər. Qeyd edim ki, ekstremizmi bir başqa formada insanların qorxu və nifrətlərindən istifadə edərək onları birləşdirən və ekspluatasiya edən təşkilatlanmış qüvvə kimi də göstərmək olar.Belə ki, ekstremizmdə radikal baxışlar, mövqelər, tədbirlər və.s fəaliyyətlərin mövcud olması ilə ekstremizm həm ictimai şüurun sahəsinə, sosial psixologiyaya, əxlaqa, ideologiyaya və onlar arasındakı əlaqələrə  təsir edir [3].

Ekstremizmi dünyada aktual edən formalarından biri də elə millətçi və yaxud etnik ekstremizmdir. Bu forma millət və xalqlar arasında nifaq toxumları səpmək, düşmənçilik yaratmaqla özünü göstərir. “Öz millətinin” maraqlarını ifadə edərək başqa xalqların hüququ və azadlıqlarını qəbul etmir. Millətçi ekstremizm orqanik olaraq separatizm (separatisme fransız sözü olub ayrı, ayrıca deməkdir) və

şovinizmlə birbaşa əlaqəlidir. O, çoxmillətli dövlətlərin dağılmasını, yerli millətin ali hakimiyyətinin təsdiqinə istiqamətlənir.Belə ki, Ümummilli lider Heydər Əliyev öz çıxışlarının birində qeyd etmişdir ki, dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığı prinsipi beynəlxalq hüququn bir prinsipi kimi qəbul edilmişdir. “Hər bir ölkənin ərazi bütövlüyü, sərhədlərinin pozulmazlığı Birləşmiş Millətlər Təşkilatının sənədlərində təsbit edilmiş beynəlxalq hüququn sarsılmaz prinsipidir”. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şərq Tərəfdaşlığı Sammitinin plenar sessiyasında çıxışı edərkən bildirmişdir ki, “XXI əsrdə separatizm qəbul edilə bilməz və separatizmin bütün formaları pislənməlidir eləcə də separatizmin bütün təzahürlərinə vahid yanaşma tətbiq edilməlidir” [4].

Müasir dövrdə dövlətlər daxilində baş verən separatizm və şovinizm prosesləri dövlətlərin inkişafına, ərazilərinin kiçilməsinə vəeyni zamanda ölkə iqtisadiyyatının zəifləməsinə səbəb olmuşdur. Tədqiqatçılar müasir dünyada 50 əsas separatizm ocağı olduğunu, 220 milyon əhalini və 12,7 milyon kvadrat kilometr ərazini əhatə etdiyini bildirirlər. Coğrafi tipinə görə Qərbi Avropaya 8, Şərqi Avropaya 12, Asiyaya 14, Afrikaya 6, Amerikaya 4, islam tipinə görə isə 6 mərkəz düşür. Bunlardan 20-si silahlı qarşıdurma xarakteri daşıyır. Separatizm əsasən etnik mənsubiyyətdən qaynaqlanan bir hal olmaqla, həm də etnik-dini zəmində özünü göstərir. Dünyada 180-dən çox dövlət var, onlardan yalnız 20-si etnik-monoton ölkədir, yəni başqa millətlərin sayı bu ölkələrdə 5%-dən aşağıdır. Dövlətlərin 40 faizində isə ən azı 5 azsaylı xalq yaşayır. Nəzərə alsaq ki, planetdə 8 min xalq yaşayır və nəzəri baxımdan onların hər biri müstəqilliyinə can ata bilər, onda dünyanın böyük qisminin millətlərarası savaş meydanına çevrilməsini təsəvvür etmək çətin olmaz.

Separatizm və şovinist millətçiliyin yaranması, yayılması, dövlətlər arasında yaratdığı gərginlik, beynəlxalq münasibətlərdə separatizmin dövlətlərin inkişafına göstərdiyi təsir, millətçiliyin bir dövlət üçün necə nəticələr verə biləcəyi öz əksini tapmışdır.

Qeyd edim ki, millət-insanların tarixən dil, ərazi, iqtisadi həyat və psixika ümumiliyi əsasında təşəkkül tapan və milli xarakterin, mədəniyyətin milli özünəməxsusluğunda təzahür edən sabit birliyi hesab olunur. “Millət” sözü ərəb mənşəli isimdir [5]. Milliyətçilik bir insanın öz individual kimliyi ilə mənsub olduğu bir inam, etiqad və ya politik ideologiyadır. Başqa bir mənbədə qeyd olunmuşdur ki, millət sözü latın dilində “natio” kimi işlənilir və hərfi tərcüməsi eyni əcdada malik olan insanlar deməkdir. Millət, eyni dili danışan, eyni dəyərləri və tarixi olan, eyni irqə mənsub və həmçinin eyni bir ərazidə yaşayan və ya bir zamanlar yaşamış insanları birləşdirən bir termindir. Milliyətçilik isə millətlərin ilahi seçiminin doktrini olmaqla əsasən, millətə qarşı bağlılığı, milli dəyərlərin qorunmasını və millətin inkişafı üçün çalışmağı təbliğ edir. Həmçinin, milliyətçilik millətin yaşadığı ərazinin təhlükəsizliyini də öz öhdəliyinə götürür. Lakin bu anlayışlara zidd olan separatizm-dövlətin və cəmiyyətin fundamental əsaslarını sarsıdan və ölkənin milli təhlükəsizliyinə ciddi təhlükə yaradan fəaliyyət hesab olunur. Azərbaycan dilinin izahlı lüğətində seperatizmə bu cür anlayış verilmişdir: çoxmillətli burjua dövlətlərində: azlıqda qalan millətlərin, yaxud bir əyalətin dövlətdən ayrılaraq öz müstəqil dövlətini qurmağa çalışmasıdır. Digər bir anlayışa əsasən seperatizm ayırma siyasəti apararaq elə bir fəaliyyət sahəsinə çevrilir ki, burada müstəqil dövləti qurmaq və ya başqa bir dövlətə köçürmək və ya çox geniş muxtariyyət statusu əldə etmək məqsədi ilə bir dövlətin ərazisinin bir hissəsinin ayrılmasıdır.

Separatizm bir tərəfdən, öz müqəddəratını təyin etmək hüququ beynəlxalq prinsipə əsaslanır. Beynəlxalq səviyyədə tanınmış milli azadlıq hərəkatının təzahürü hesab olunur və beləliklə dövlətin suverenlik, birlik və ərazi bütövlüyünün beynəlxalq prinsiplərini pozur və təcrübə onu göstərir ki, ən kəskin dövlətlərarası və millətlərarası qarşıdurmaların mənbəyi ola bilər.Bu baxımdan, separatizm çoxmillətli Avstriya-Macarıstan, SSRİ, Yuqoslaviya, Çexoslovakiya və digər ölkələrin parçalanmasında olduğu kimi həlledici rol oynaya bilər.Ayrılıq iki

növə bölünür: etnik və dini. Separatizm həmçinin müvafiq qruplar tərəfindən həyata keçirilmiş məqsədlərə görə də fərqlənir.

Məqsədlər aşağıdakılardır:

- Ayrı-seçkiliyə görə ayırma, onların məqsədi yeni müstəqil dövləti qurmaq və yaratmaqdır;
- Digər dövlətə qoşulmaq məqsədi ilə ayrılma;
- Bölgənin dövlətin tərkib hissəsi olaraq saxlanılması zamanı məqsəd yalnız daha böyük qazanmaq üçün ayrılma;

Belə ki, milli-etnik hərəkatların məqsədlərindən asılı olaraq, münaqişələrin aşağıdakı tipləri vardır:

- sosial-iqtisadi ictimai məhsulun bir hissəsinin öz xeyrinə yenidən bölüşdürülməsi uğrunda mübarizə;
- milli mədəniyyətinin müdafiəsi;
- ərazi-status sərhədlərinin dəyişdirilməsi, statusun yüksəldilməsi və etnosun real hüquq və səlahiyyətlərinin artırılması uğrunda mübarizə;
- separatçı federasiyasının tərkibindən çıxaraq, müstəqil dövlətin yaradılması uğrunda mübarizə;

Mübarizə metodlarına və formalarına görə etnik münaqişələri zorakı və qeyri-zorakı münaqişələrə ayırmaq olar [1].

Etnik ekstremizmin digər növü olan şovinizm də ifrat milliyətçiliyi özündə təzahür etdirir. Şovinizm millətçiliyin ifrat, mürtəce formalarından biri hesab olunur. Qeyd edim ki, şovinist millətçilik deyə bir ifadənin olması ağla batan deyil, çünki şovinizm yəhudi milliyyətçiliyinin  adı kimi də qeyd olunur.Şovinizm siyasəti “ikinci dərəcəli” millət və irqlər üzərində hökmranlıq etməli bir millətin milli müstəsnalığını təbliğ edir. Şovinizm termini 1831-ci ildə Fransada yazılmış komediyalardan birinin qəhrəmanı olan Napoleonun işğalçılıq siyasətinin pərəstişkarı Nikola Şovenin adından yaranmışdır. Şovinizm sözü ilə millətçilik ekstremizmin müxtəlif təzahürlərini ifadə edirlər. XIX əsrin 70-ci illərində Böyük

Britaniyada Şovinizm xüsusi ad "*cinqoizm*" adını almışdır. Şovinizmin digər təzahürləri sosial-şovinizm, hakim millətçilik şovinizmidir [6]. Şovinizm ümumbəşəri dəyərlərə düşmən olan anlayışdır. Şovinizm,millətçilik və separatizm millətlərarası münaqişələrə, düşmənçiliyəsəbəb olur.

Etnik konfliktlər törətdiyi nəticələrə görə çox təhlükəlidir və bu yalnız qarşıduran tərəflər üçün deyil, bütün dünya üzrə təhlükəyə çevrilə bilər. Yadımıza salaq ki, Birinci Dünya müharibəsi də serblərlə Avstriya-Macarıstan arasında olan etnik konfliktdən başladı.

Beləliklə, Avropa Birliklərinin yaradılması digər məqsədlərlə yanaşı, həm də milliyyətçiliklə mübarizə aparmaq və post-milli cəmiyyətlər qurmaq kimi hədəflərə xidmət edirdi. Bununla belə, Avropa liderləri regional və sub-dövlət milliyyətçiliyinin potensialını düzgün hesablaya bilmədilər. Dövlətin zəifləməsini şərtləndirən Avropa İttifaqı sub-dövlət elementlərinin güclənməsi ilə nəticələndi.Artıq bəzi üzv dövlətlərdə, o cümlədən Belçika, Böyük Britaniya və İspaniyada parçalanma ehtimalları o qədər realdır ki, müzakirələr atılacaq növbəti addımları üzərində qurulub [7].

Son dövrlərdə baş vermiş Avropa ölkələrindən biri olan İspaniyanın Katoloniya əyalətində baş vermiş hadisə etnik ekstremizmə misal ola bilər. Beləliklə, artıq görürük ki, separatizm meyilləri sakit və stabil Avropanı da öz ağuşuna almağa başlamışdır. Görəsən, Kataloniyanın bu addımına Qərbin, Avropa İttifaqının cavabı necə olmuşdur? "Kataloniya əhalisi onsuz da İspaniya daxilində lazımi hüquq və azadlıqlara sahibdirlər. Yüksək idarəetmə hüququna malikdirlər. Öz büdcələrini özləri formalaşdırıb, özləri də xərcləyir. İnsan haqları və azadlıqlar sahəsində Avropada olan bütün dəyərlər özünü Kataloniyada da göstərir. Separatizm hansı formada olursa-olsun onu dəstəklənməməlidir. Bu hadisə Avropanın digər ölkələrində də separatizmi gücləndirə bilər [8]. Belə ki, ancaq ispan hökuməti bu referendumun konstitusiyaya zidd olduğunu əsas gətirərək onun keçirilməsinə icazə verməmişdir.Bundan əlavə, İspaniya Konstitusiya

Məhkəməsinin Basklar ölkəsinin referendum keçirmək hüququ ilə bağlı 11 sentyabr 2008-ci il qərarı regionların referendum keçirmək səlahiyyətinin olmadığını təsdiq edir. Mütəxəssislər Kataloniya hadisələrini ümumən Avropadakı siyasi-ideoloji situasiya ilə əlaqələndirirlər [9].

İspaniyada baş verən hadisələr zamanı Kataloniyanın müstəqilliyi tanınsaydı, bu digər Avropa ölkələrində domino effekti yarada bilərdi. Məsələn, Almaniyanın Bavariya şəhərində mühafizəkar milliyətçiləri də Almaniyadan ayrılmaq istəkləri güclənə bilərdi. Bütün bunlara görə Avropa dövlətləri separatist hərəkatı dəstəkləmədi.

1988-ci ildə Azərbaycan Respublikasının tərkib hisssəsi olan Dağlıq Qarabağda erməni separatçıları tərəfindən etnik münaqişənin başladılması ilə yüz minlərlə azərbaycanlı öz tarixi torpaqlarından didərgin düşdü.

Dağlıq Qarabağ erməni separatizmi və Ermənistan tərəfindənAzərbaycan ərazilirinin 20 faizinin işğal edilməsi nəticəsində minlərləinsan həyatını itirdi, 1 milyona yaxın insan qaçqına və məcburiköçkünə çevrilmişdir.

Qarabağın Azərbaycan Respublikasından ayrılmasının və müstəqilliyinin birtərəfli qaydada elan edilməsi, həm xalqların öz müqəddəratını təyin etməsi, həm də ərazi bütövlüyü prinsiplərinə ziddir. Həmçinin, Azərbaycandan ayrılmaq mövzusunda “Qarabağ referendumu” ilə müqayisə aparan populistlər çox mühüm nüansları nəzərə almağı unudurlar. İlk növbədə, bu psevdo-referendum Qarabağın bütün sakinlərinin iradəsini əks etdirmirdi. İkincisi, nə Böyük Britaniya, nə də İspaniyanın hazırda ərazi problemləri yoxdur və ərazinin hansısa hissələrinin işğal edilməsi faktı beynəlxalq miqyasda qəbul edilmir. Azərbaycan məsələsində isə, biz qonşu dövlət tərəfindən ərazi işğalı məsələsindən bəhs edirik. Buna görə də, katalonların müstəqillik əldə etmək cəhdi ilə Dağlıq Qarabağın separatist işğalı arasında müqayisə aparmaq növbəti dəfə siyasətçilərin diqqətini Qarabağ münaqişəsinin real vəziyyətindən yayındırmağa yönəlmiş populist fənddən başqa bir şey deyil. Həmçinin, Azərbaycanın Qarabağ məsələsində olduğu kimi, Madridə

də katalon separatizminə qarşı hərbi güc tətbiqini qadağan edən heç bir BMT qanun və ya qətnaməsi yoxdur [10].

Separatist qüvvələrə digər bir nümunə olaraq Kürdüstanın müstəqilliyi üzrə 25 sentyabr 2017-ci ildə referendumun həyata keçirilməsi misal ola bilər. İraqın Kürdüstan bölgəsində seçicilər ziddiyyətli müstəqillik referendumu üçün səsvermə məntəqələrinə getmişdilər. Səsvermə İraq Kürdüstan Regional Hökumətini (İKRH) təşkil edən üç şimali rayon və Bağdadla mübahisəli ərazilərdə keçirilib. İraqın baş naziri referendumu "konstitusiyaya ziddiyətli" olduğunu deyib və xəbərdarlıq edib ki, o, "ölkənin birliyini saxlamaq üçün lazımi tədbirlər" görəcək. Kürd liderləri gözlənilən "bəli" seçiminin qələbəsinin onlara müstəqillik üzrə danışıqlara başlamağa səlahiyyət verəcəyini deyirlər. Qərb ölkələri yeni münaqişənin yaranması və özünü İslam Dövləti (İD) adlandıran qruplaşma ilə mübarizədən yayınmaq ehtimalı ilə referendum barədə narahatlıqlarını ifadə ediblər. Kürdlər Yaxın Şərqdə dövlətsiz olan ən böyük etnik qruplardan biridir. 1991-ci ildə muxtariyyat qazanmadan əvvəl, İraqın 37 milyonluq əhalisinin 15-20 faizini təşkil edən kürdlər onilliklərlə repressiya ilə üzləşmişdilər [11].

Bundan sonra hadisələrin ağırlıq mərkəzi cənuba, Rusiya qüvvələrinin yerləşdiyi Krım yarmadasına keçib. Moskvanın addımlarına Kiyev ölkədə ümumi səfərbərlik elan etməklə cavab verib. Krımda separatçılıq üçün zəmin mövcuddur. Bölgə 2010-cu il prezident seçkilərində Viktor Yanukoviçə səs verib. Krım əhalisinin əksəriyyəti Kiyevdə çevrilişin baş verdiyini düşünür. Nəticədə Krım parlamentində separatçılar Ukraynadan ayrılmaq məsələsini qaldırdılar. Yarmadada 2.3 milyon əhali yaşayır, onların çoxu etnik rus və rusdilli əhalidir. Ukraynada Yanukoviçin devrilməsindən sonra genişlənən separatçılıq dalğasında Krım Muxtar Respublikasının parlamenti tərəfindən təyin olunan referendum rəsmi Kiyev və Qərb tərəfindən öncədən qanunsuz elan edilmişdi.

Gündən-günə qloballaşan, vahid valyuta tətbiq edən, sərhədləri götürən Avropa dövlətləri artıq böyük Avropa dövlətində birləşmək istiqaməti

götürdüklərindən qoca qitədə etnik ekstremizm ocaqları öz-özünə sönmüş olub. Bununlabelə, problem tam həll olunmayıb. Bir neçə il öncə az qala Belçika əvvəlcə iki, sonra üç hissəyə bölünəcəkdi. Bu ölkədəki separatçılar Belçikanı Flandriya, Valloniya və Brüsselə bölmək istəyirdilər. Ancaq bu ittifaq könüllülük əsasında baş tutduğu, heç kim bir-birini zorla bir arada tutmadığı üçün sağlam düşüncə qalib gəldi.Tərəflər başa düşdülər ki, bu hadisələr etnik ekstremizmin gətirdiyi bəlalardır və hər tərəfin zəifləməsinə gətirib çıxaracaq, arada cırtdan dövlətlərin sayını artıracaq [2].

Separatçılıq hazırda bütün dünyanı narahat edən məsələlərdən biridir. Müasir dövrdə planetimizin hər tərəfində etnik separatizm meyilləri güclənməkdədir. Bu da regional və beynəlxalq təhlükəsizliyin təmin olunmasına mənfi təsir göstərir. Bəşəriyyətin sülh və əmin-amanlıq şəraitində yaşaması üçün belə meyllərin qarşısını almaq vacibdir. Bu məsələfə separatçılıqdan əziyyət çəkən ölkələrin birləşməsi daha önəmlidir.

Bu məqsədlə İspaniyanın dövlət vəkili, Hüquq və Qanunvericilik Royal Akademiyasinin üzvü Jesus Lopez-Medel CBC-yə müsahibəsində bildirib ki, separatçılıq hər kəsi narahat edir: “Bu, dünyanın bir çox ölkələri üçün ciddi problemdir. Separatçılıq və terrorçuluqdan əsasən ölkələrin əhalisi əziyyət çəkir. Bu problemə qarşı birlikdə mübarizə aparmaq lazımdır. Serapatçıların əməlləri mütləq qanun çərçivəsində cəzalandırılmalıdır”.

Azərbaycanın təşəbbüsü ilə separatçılığa qarşı beynəlxalq təşkilat yaradılıb. “Anti-Separatizm Hərəkatı”nın təsis olunması haqqında məlumat Brüsseldə keçirilən beynəlxalq forumda elan edilib. Hərəkatın yaradılmasında əsas məqsəd dünyanın müxtəlif regionlarında separatizm hərəkatları nəticəsində meydana çıxan, yüzminlərlə insanın qətlinə, qaçqın və köçkünə çevrilməsinə səbəb olan münaqişələri dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdan ibarətdir. Ekspertlər hesab edirlər ki, bu mürəkkəb dövrdə qlobal terrorçuluq və separatçılığıa qarşı yalnız bilikdə mübarizə aparmaq olar.

Dünyanın sanki ağır bir xəstəlik kimi  yoluxduğu separatçılıq demək olar hər kəsin yaşayışına, həyat tərzinə təsir edir. Çünki separatçılıq təkcə baş verdiyi ərazilərdə yox, eyni zamanda, oraya gələn insanların həyatında da öz dərin izlərini qoyur. Cinayətkarların əməlləri regional və beynəlxalq təhlükəsizliyin təmin olunmasına maneələr yaradır. Bu baxımdan, separatçılıqdan əziyyət çəkən dövlətlər bir araya gəlib mübarizə üçün birləşməlidirlər.

Forum iştirakçıları qeyd ediblər ki, separatçılıq təkcə baş verdiyi ərazilərdə yox, eyni zamanda, oraya gələn insanların həyatında da öz dərin izlərini qoyur. Problem qlobal miqyasda həllini tapmadıqca bundan milyonlarla insan əziyyət çəkəcək və tarix bu itkili səhifələrlə zəngin olacaq. “Millətlərin öz müqəddəratını təyinetmə hüququ”nu əsas istinad mənbəyi kimi qəbul edərək baş qaldıran separat hərəkatlar nəinki əhatə etdiyi regionlarda, eyni zamanda bütün dünyada dövlətlərin ərazi bütövlüyünü şübhə altına alır. Xalqların birgəyaşayışına inamı sarsıdır, sülhü, sabitliyi, təhlükəsizliyi ciddi şəkildə təhdid edən qlobal problemə çevrilir. Belə ki, toplantı çərçivəsində “Anti-Separatizm Hərəkatı” Beynəlxalq İctimai Təşkilatının yaradılması haqqında Təşəbbüs Qrupunun Bəyanatı qəbul edilib. Sənəddə qeyd olunur ki, Hərəkatın yaradılması təşəbbüsü dünyanın müxtəlif regionlarında separatizm hərəkatları nəticəsində meydana çıxan, yüzminlərlə insanın qətlinə, qaçqın və köçkünə çevrilməsinə səbəb olan münaqişələrin qlobal sülhə təhdid olduğunu, bəşəriyyətin gələcəyi üçün ciddi təhlükəyə çevrildiyini dünya ictimaiyyətinin diqqətinə çatdırmaq ideyasına əsaslanır. “Anti-Separatizm Hərəkatı” Beynəlxalq İctimai Təşkilatı bütün dövlətlərin, xalqların, millətlərin, etnik yaxud dini azlıqların hüquqlarına hörmətlə yanaşacaq, qəti şəkildə heç bir dövlətin, xalqın, millətin, dini, etnik yaxud digər azlıqların əleyhinə fəaliyyət göstərməyəcək, mədəniyyətlərarası dialoq, millətlərin birgəyaşayışı, sülh, sabitlik və təhlükəsizlik ümumbəşəri ideyaların təbliğinə xidmət edəcək. “Anti-Separatizm Hərəkatı” Beynəlxalq İctimai Təşkilatının Təsis Konfransının 2018-ci ilin birinci yarısında keçirilməsi məqsədəuyğun hesab edilib [12].

## References


1. Konfliktologiya [Conflictology]. Derslik [Textbook], Baku, 2006, 123 p.
2. Nasirova A.V. Separatizm ve Shovinist milletchiliyin beynelxalq munasibetlere tesiri [Influence of separatism and chauvinistic nationalism on international relations]. Master in Law Dissertation, Baku, 2015.
3. http://newtimes.az/az/politics/1207/
4. http://icmal.az/ilham-eliyev-xxi-esrde-separatizm-qebul-edile-bilmez/
5. https://az.wikipedia.org/wiki/Mill%C9%99t%C3%A7ilik
6. https://az.wikipedia.org/wiki/%C5%9Eovinizm
7. https://yenicag.az/kataloniya-numunesi-avropada-separatizmi-guclendirecek-politoloq-yenicag/
8. https://yenicag.az/kataloniya-numunesi-avropada-separatizmi-guclendirecek-politoloq-yenicag/
9. https://news.milli.az/world/588924.html
10. https://ordu.az/ru/news/122427/kataloniya,-qarabag-ve-ermeni-populizmi
11. http://www.bbc.com/azeri/international-41307998
12. http://cbc.az/az/az/v_story/ant-separatzm-hrkati-yaradildi